“Mənim ana dilim” mövzusunda təşkil olunan bu tədbirin əsas məqsədi Azərbaycan dilinin tarixi mərhələləri, rəngarəngliyi və bu dildə yaranmış əsərlər barədə şagirdlərin məlumatını artırmaq, ana dilimizi qoruyub saxlayaraq gələcək nəsillərə ötürmək üçün onlarda doğma dilimizə qarşı sevgi və hörmət hissini daha da artırmaqdan ibarət olub.

Tədbirdə Azərbaycan Dillər Universitetinin kafedra müdiri, filologiya elmlər doktoru Adil Babayev çıxış edərək ana dilinin əsrarəngiz gözəlliyindən, səlisliyindən və s. danışıb.

Sonra şagirdlər ana dilində şer və monoloq söyləyib, mahnılar oxuyublar, eyni zamanda Azərbaycanın görkəmli yazıçı və şairlərinin foto albomundan ibarət təqdimat olub.

Tədbirdə Təhsil Nazirliyinin və Bakı Şəhər üzrə Təhsil İdarəsinin əməkdaşları, şagird, müəllim və valideynlər iştirak ediblər.